1 aprel.- 2023.- S. 10.

Ədəbiyyat qəzeti

# İnqilab İSAQ - 70

Hörmətli İnqilab müəllim!

Sizi - tanınmış şairi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1974-cü ildə Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsini bitirmisiniz. Uzun illər pedaqoji fəaliyyətlə məşğul olmuş, həmçinin Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialında baş müəllim vəzifəsində çalışmısınız. Dərs deməklə yanaşı, uzun illər rayon və respublika qəzetlərinin müxbiri olmusunuz.

Bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. Çox sayda məqalə, oçerk və poetik nümunələriniz qəzet-jurnal səhifələrində dərc edilib. "Deməyə sözüm var", "Aləm cənnətə dönsə", "Aydan axan bulaq", "Bir çəmənin çiçəkləri", "Obaları gəzə-gəzə", "Ümidə borclu dünya", "Canım sənə desin", "Krik tişını" (rus dilində), "İndi elə təkəm ki", "Nərgizin nərgizləri", "Savaş sevdası" (şeirlər), "Gizli buluşmalar" (İstanbul), "Sözün nəbzi" (gürcü dilində) kitablarının müəllifisiniz.

Siz 2015-ci ildə Bynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz. Şeirləriniz rus, ingilis, Ukrayna, özbək, gürcü dillərinə tərcümə edilib, Türkiyə türkcəsində işıq üzü görüb.

Hörmətli İnqilab müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**